AZƏRBAYCAN İNCƏSƏNƏT TARİXİ

ABBASQULU NƏCƏFZADƏ

# MUSİQİ

Azərbaycan milli
kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2018

# *SOLTAN HACIBƏYOV*
## *(1919–1974)*





Soltan İsmayıl oğlu Hacıbəyov (08.05.1919, Şuşa – 19.09.1974, Bakı) bəstəkar, dirijor, pedaqoq, ictimai xadim olub. SSRİ Dövlət mükafatı laureatı (1952), Azərbaycan Dövlət mükafatı laureatı (1979), SSRİ Xalq artisti (1973) adlarını alıb və ABİ İdarə Heyətinin katibi işləyib.

S.Hacıbəyov 1930-cu ildə Bakıya köçmüş, 1936-cı ildən öz əmisi Ü.Hacıbəylinin ailəsində yaşamış və tərbiyə almışdır. Orta məktəbi bitirdikdən sonra musiqi texnikumuna daxil olan S.Hacıbəyov A.L.Kolpinskinin truba sinfində təhsil alır. 1939-cu ildə o, ADK-nın "Bəstəkarlıq" şöbəsinə, professor B.Zeydmanın sinfinə daxil olur və buranı 1946-cı ildə bitirir. 1947-ci ildə isə MDK-da D.Şostakoviçin sinfində təcrübə dərsləri keçmişdir.

S.Hacıbəyov tələbəlik illərində, 1940-cı ildə ADMKT-də orkestrin rəhbəri və dirijoru vəzifəsində çalışmışdır. 1947-ci ildən isə ADK-da müəllimlik etmiş, ADF-nin bədii rəhbəri (həmçinin "Sazçı qızlar ansamblı"na rəhbərlik etmişdir), sonra isə direktoru (1947–1962), Ü.Hacıbəyli adına ADK-nın rektoru vəzifələrində çalışmışdır (1969–1974).

Bəstəkarın yaradıcılıq fəaliyyəti məhz tələbəlik illərindən başlayır. Onun ilk əsəri xor və simfonik orkestr üçün yazdığı "Pioner kantata"sı və "Qızılgül" (1940) musiqili komediyasıdır. Həmin illərdə İki prelyüd və fortepiano üçün sonata, İ.Zamanlının sözlərinə "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnılarını, "Quşcuğaz", "Tənha yelkən ağarır" romanslarını, simli kvartet, simfonik variasiyalar (1943) yazır.

S.Hacıbəyov yaradıcılığında uşaqları da unutmamışdır: "Oynaq topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı". O bu əsərlərin hamısını 1953-cü ildə bəstələmişdir.

S.Hacıbəyovun bəstələdiyi I simfoniya yaradıcılığında mühüm yer tutur. Ona 1945-ci ildə Türkmənistan Opera və Balet Teatrı "Kəminə və Qazı" operasını yazmağı sifariş edir. Həmin əsərin simfonik parçası da "Karvan" adlanır. 1955-ci ildən isə bu əsər yenidən nəşr olunaraq müstəqil şəkildə repertuarlara daxil olunur.

1950-ci ildə S.Hacıbəyov ona şöhrət gətirəcək daha bir maraqlı əsər yazır: "Gülşən" baleti. O həmin illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləyir: "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi" və s.

S.Hacıbəyov 1950-ci illərdə Bolqarıstan və Çexoslovakiyaya yaradıcı səfərdən vətənə qayıtdıqdan sonra "Bolqar süitası" və "Çex rəqsi" əsərlərini bəstələyir. O, 1964-cü ildə ən parlaq milli simfonik əsərini – orkestr üçün "Konsert"ini yazır. S.Hacıbəyov bir çox tamaşalara da musiqi bəstələmişdir: M.İbrahimovun – "Məhəbbət" və "Kəndçi qızı", S.Vurğunun "İnsan", S.S.Axundovun "Eşq və İntiqam", S.Rəhmanın "Əliqulu evlənir" və s.